Azərbaycan.- 2021.-19 mart. S. 1; 8.

# Co Bayden İlham Əliyevlə əməkdaşlığa hazır olduğunu bəyan etdi

Son prezident seçkilərindən sonra ABŞ-ın ayrı-ayrı ölkələrlə münasibətlərinin davamının hansı məcrada olacağı, yeni seçilmiş Co Baydenin Vaşinqtonun xarici siyasət kursunda hansı korrektələr edəcəyi beynəlxalq gündəmin müzakirə mövzularından biri idi. Lakin ilk günlərdən də məlum idi ki, Ağ evin yeni rəhbərliyi xarici siyasəti keyfiyyətcə yeni çərçivədə həyata keçirmək istəyir.

Prezident Co Baydenin vəzifəsinin icrasına başlamasından sonra Bakı ilə Vaşinqton arasında ali siyasi səviyyədə təmas olmayıb. Amma ötən gün onun Novruz bayramı münasibətilə Prezident İlham Əliyevə ünvanladığı təbrik məktubu iki dövlət arasındakı əlaqələrin perspektivinə tam aydınlıq gətirdi.

*Ardı 8-ci səh.*

# Co Bayden İlham Əliyevlə əməkdaşlığa hazır olduğunu bəyan etdi

*Əvvəli 1-ci səh.*

Belə ki, bu məktub ABŞ-ın yeni Prezidentinin Azərbaycanla əlaqələrin daha da inkişafında maraqlı olduğunu təsdiqlədi.

Qeyd edək ki, ötən dövrdə Azərbaycan-ABŞ münasibətləri hər iki dövlətin maraqları və bərabərhüquqlu tərəfdaşlıq prinsipləri çərçivəsində inkişaf edərək ən müxtəlif sahələri əhatə edib. İstər siyasi, istər iqtisadi sahələrdə ölkələr arasında uğurlu əməkdaşlıq formatları qurulub. Azərbaycan ABŞ-ın dəstəyi ilə formalaşan beynəlxalq antiterror tədbirlərinə fəal dəstək verir. Azərbaycan hərbçiləri NATO hərbçiləri ilə birlikdə bu ölkədə davamlı sülhün və təhlükəsizliyin təmin edilməsinə öz töhfələrini verirlər. Azərbaycan həmçinin Əfqanıstandakı əməliyyatlara öz logistika dəstəyini göstərir.

ABŞ Azərbaycanın enerji siyasətində yer alan əsas tərəfdaşlardan biridir. Bu sahədə əlaqələr strateji xarakter daşımaqla həm Bakının, həm də Vaşinqtonun maraqlarına cavab verir. ABŞ-ın sabiq prezidentləri də Azərbaycanla müxtəlif sahələri əhatə edən əməkdaşlığın inkişaf etdirilməsinə tərəfdar olublar və bu, Ağ evin Cənubi Qafqaz və Xəzər dənizi regionlarındakı siyasi prioritetləri sırasında yer alıb.

Bu baxımdan Co Baydenin təbrik məktubu ABŞ-ın yeni Administrasiyasının Azərbaycanla əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün Prezident İlham Əliyevlə bundan sonra da birgə çalışmaqda maraqlı olduğunu, ABŞ-Azərbaycan əlaqələrinin strateji əhəmiyyət kəsb edən münasibətlər səviyyəsinə yüksəldiyini, dostluq və tərəfdaşlıq xarakteri daşıdığını göstərir.

Co Baydenin məktubu həm də Azərbaycanın İkinci Qarabağ müharibəsindəki Qələbəsinə ABŞ-ın yeni Administrasiyasının mövqeyinin ifadəsidir. Belə ki, ABŞ Azərbaycanın tarixi qələbəsi nəticəsində regionda yaranmış yeni reallığı görür və bu reallıqlar çərçivəsində Ermənistan və Azərbaycan arasında barışığın təşviq olunmasına çalışacağını bəyan edir. Məktubda yer alan bu fikir 2020-ci il 9 noyabr bəyanatında əksini tapmış məsələlərin reallaşması və davamlı barışıq, sülhün bərqərar olunması istiqamətində Azərbaycanın həyata keçirdiyi siyasi kursa uyğundur.

ABŞ-ın yeni Administrasiyası da Azərbaycanın regionda sabitliyin və təhlükəsizliyin təminatında, o cümlədən qlobal enerji təhlükəsizliyində mühüm rol oynayan dövlət olduğunu görür. Ağ evdə Azərbaycan güclü, dinamik inkişaf edən, qlobal müstəvidə önəmli təşəbbüslərlə çıxış edən və yaranan problemlərin həllinə əməli dəstək verən ölkə kimi qiymətləndirilir.

Bütövlükdə məktub göstərir ki, ABŞ Prezidenti Co Bayden iqtisadiyyatın şaxələndirilməsi istiqamətində respublikamızın həyata keçirdiyi islahatlara dəstəyini və ABŞ-ın Azərbaycanla iqtisadi əməkdaşlıq üçün yeni imkanları nəzərdən keçirmək arzusunda olduğunu ifadə edir. Həmçinin ABŞ Prezidenti Xəzər dənizində enerji imkanlarının inkişafı ilə bağlı Azərbaycanın səylərini, həyata keçirdiyi nəhəng enerji layihələrini də dəstəkləyir. Bunlar isə Azərbaycan-ABŞ münasibətlərində yeni keyfiyyət dəyişikliklərinin baş verəcəyini söyləməyə əsas verir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***